# İNCƏSƏNƏT

**ALMAZ QURBANOVA**
**Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin magistri**
**Respublika Dövlət Kənd Təsərrüfatı Muzeyi**
**qurbanovaalmaz13@gmail.com**

## MUZEY İNSTİTUTLARININ MƏDƏNİ-MAAİF VƏ ELMİ FƏALİYYƏT MİSİYASI

**Xülasə**

Azərbaycanın zəngin maddi və mənəvi irsi muzeylər vasitəsilə qorunur, öyrənilir və cəmiyyətə çatdırılır. Müstəqillik dövründə muzeylərin elmi-tədqiqat, maarifləndirmə və sosial-mədəni fəaliyyəti daha da genişlənmiş, bu sahəni tənzimləyən hüquqi baza formalaşmışdır. Muzeylər yalnız eksponatların saxlandığı məkan deyil, həm də elmi biliklərin yayılması, tərbiyəvi təsirin gücləndirilməsi və yaradıcı idrakın inkişafı üçün mühüm mədəni-maarif institutudur. Müasir muzeyşünaslıq muzeylərin funksiyalarını, strukturunu və prinsiplərini araşdıraraq onların pedaqoji, kommunikativ və elmi fəaliyyətini sistemləşdirir.

Ekspozisiyanın elmi konsepsiya əsasında qurulması, elmi-maarif ekskursiyalarının təşkili və muzey mühitinin təlim-tərbiyəyə təsiri muzey işinin əsas istiqamətlərini təşkil edir və cəmiyyətin mədəni inkişafına əhəmiyyətli töhfə verir.

**Açar sözlər :** muzeyşünaslıq**,** muzey, mədəni irs, ekspozisiya, ekskursiya

Azərbaycanın zəngin maddi və mənəvi iris bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Bu irsin qorunması, öyrənilməsi və gələcək nəsillərə ötürülməsində muzeylər əsas mədəni-maarif mərkəzləri kimi çıxış edir. Muzeylər tarixi yaddaşı qoruyur, milli kimliyi möhkəmləndirir və cəmiyyətin mədəni səviyyəsinin yüksəlməsinə töhfə verir. Müstəqillik dövründə muzeylərin fəaliyyəti genişlənmiş, onların elmi-tədqiqat, maarifləndirmə və sosial-mədəni missiyası daha da güclənmişdir. Bu baxımdan muzeylər təkcə eksponatların saxlandığı məkan deyil, həm də təhsil, tərbiyə və mədəni dəyərlərin təbliği üçün vacib platforma rolunu oynayır. Azərbaycan xalqının maddi və mənəvi xəzinəsinin əsas potensialını təşkil edən bu muzey kolleksiyalarının mühafizə edilməsi müstəqil dövlətimizin mədəniyyət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Bu sahədə məqsədyönlü fəaliyyətin müasir bəşəri tələblər əsasında reallaşması üçün Respublikada

əsaslı hüquqi-normativ baza hazırlanmışdı. Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" (1998-ci il 10 aprel), " Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998-ci il 13 iyun), "Muzeylər haqqında" (2000-ci il 24 mart) Qanunlarında muzey və muzey əhəmiyyətli sərvətlərin mühafizəsinin prioritetləri müəyyənləşdirilmişdir.

Müxtəlif tarixi dövrlərdə cəmiyyətin inkişafı ayrı-ayrı elm sahələrinin yaranması, tərəqqisi ilə sıx əlaqədə olduğundan, elm və mədəniyyətin təkanverici təsiri bəzi dövrlərdə hətta qanunauyğun şəkil almış, dövlətlərin mədəniyyət sistemi yaranmışdır. Beləliklə, muzeylər qədim yunan mifologiyasında insanların mənəvi fəaliyyətinin – poeziya, elm və incəsənətin himayədar ilahələri hesab edilən muzalar məbədi mənasının daşıyıcıları olaraq yalnız estetik zövq verməklə kifayətlənmir, eyni zamanda tarixi, maddi və mənəvi abidələri komplektləşdirən, mühafizə edən, öyrənən, nümayiş etdirərək təbliğ edən mədəni-maarif müəssiələri kimi də öz elmi və ictimai fəaliyyətini, muzey işinin əsas prinsiplərini elmi-tarixi əsaslar üzərində qurur, müasir avadanlıqlarla və eksponatlarla təchiz olunmasının təmin edir, elmi biliklərin yayılmasına xidmət edir.

Son dövr muzeyşünaslığında ayrı-ayrı problemlərin konkret obyektləri tədqiqatçılarımız tərəfindən müəyyənləşdirilir və muzeyşünaslığın həmin sahəsi istiqamətində araşdırmalar aparılır. Muzeyşünaslığın bir elm kimi formalaşmasında, muzeylərin fəaliyyəti, elmi-mədəni müəssisə olması haqqında bir sıra məlumatlara alimlərin, tarixçilərin, sənətşünasların yazılarında rast gəlmək mümkündür. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elfira Məlikova tərəfindən muzeyşünaslığın predmeti, məqsədi, vəzifələri və prinsipləri verilmiş, muzey işinin tarixi, muzeyşünaslığın quruluşu, muzey işinin nəzəriyyəsi, muzey fəaliyyətinin mərhələləri, elmlər sistemində yeri, fond işi nəzəriyyəsi, muzey işinin təşkili metodikası elmi ardıcıllıqla göstərilmişdir. Elfira Məlikova "Azərbaycan Muzeyşünaslığı" adlı monoqrafiyasında bəhs edir : "Muzeylərin yaranma səbəblərini, toplanan kolleksiyaların mənşəyini tədqiq edən muzeyşünaslıq elmi fundamental arxiv sənədləri və elmi əsərlər üzərində araşdırmalar aparmaqla formalaşmışdır. Muzeyşünaslıq elminin tarixi və nəzəriyyəsi muzeylər haqqında yazılan məlumatlardan götürülmüşdür. Bu məlumatlar arxiv, kitabxanalar, muzey arxivləri, çap edilmiş informasiya xarakterli materiallar əsasında yığılmışdır. Mənbələrdən alınan biliklər bir araya gətirilərək elmin tarixi və nəzəriyyəsin sistemləşdirilmişdir. Muzeyşünaslıq elmi konkret muzey fəaliyyəti istiqamətinin tədqiqi əsasında inkişaf etməmişdir. Bir neçə tədqiqat obyektini öyrənməklə formalaşan elm, hələ də inkişaf mərhələsindədir. Muzeyşünaslıq elminin sənədləri hüdudsuzdur. Demək, muzeylərin coğrafi məkanını, yayılma səbəbini, sənətkarlıq, sənət əsərləri, zövqlərin inkişaf səbəblərini, əlyazmaların yayılma və təcrübə səbəblərini və s. bu kimi əsas məsələlərin tarixini öyrənmək üçün əsrlər tələb olunur... Muzeylər mədəni-maarif müəssisələri arasında fəaliyyətinin xüsusiyyətlərinə görə fərqlənir. Muzey tarixi əsərləri, estetik dəyərləri qoruyan və istifadə edərək sosial informasiya vasitəsi ilə

sənədləşdirən ixtisaslaşdırılmış institutdur...Muzey işinin tərkibinə daxil olanelementlər muzeylərdə praktiki iş və abidələrin qorunması, muzey şəbəkəsi, muzey siyasəti və qanunvericiliyi, yüksək səviyyəli kadrların hazırlanma sistemi, profil üzrə elmi, elmi-metodiki və təhsil mərkəzləri, ixtisaslaşdırılmış dövriyyə xüsusi elmi fənn olan muzeyşunaslığı ortaya çıxarır...Muzeyşunaslıq muzeylərin yaranmasl və tarixi, onların müxtəlif ictimai sistemdə yerini, muzeylərin təsnifatı tipologiyasını, muzey işinin tarixini öyrənir. Muzeyin daxili təşkilatçılıq işi, bu təşkilatın muzeyin sosial funksional inkişafı ilə qarşılıqlı əlaqələrini, profil fənnlərinin inkişafını tədqiq edir". [1, s8]. Azərbaycanının tədqiqatçı-muzeyşunası S. Əmirxanov da muzeyşunaslığın məqsədindən bəhs etmişdir : Muzeyşunaslığın məqsədi fəaliyyət vasitəsi ilə məzmunun mahiyyətini, səciyyəvi xüsusiyyətlərini, əsas istiqamtlərini, qanunauyğunluqlarını, prinsiplərini, forma, metod, vasitə və yollarını araşdırmaq, həmçinin formalaşmada təsirini müəyyənləşdirməkdir[2, s34].

Elmi tədqiqat funskiyasını yerinə yetirmək üçün muzey müxtəlif mənbələr hesabına formalaşmış zəngin eksponat fondu, material və əşyalar toplusuna sahib olur. Bu ehtiyatlar üzərində aparılan araşdırma, təhlil və praktik tətbiq işləri muzeyin daxili strukturları ilə yanaşı, digər elmi-tədqiqat qurumları ilə əməkdaşlıq şəraitində həyata keçirilir ki, bu da onun elmi və yaradıcı potensialını daha da gücləndirir. Nəticə etibarıilə muzeylər elmi-tədqiqat funksiyasını səmərəli və yüksək səviyyədə icra etmək üstünlüyü qazanır. Maarifləndirmə funksiyasını həyata keçirən muzeylər öz fəaliyyət profillərinə uyğun olaraq müxtəlif elm sahələrini əhatə edən eksponatlardan məqsədyönlü şəkildə istifadə edir. Bu yanaşma sayəsində müxtəlif yaş qruplarına və ixtisas sahələrinə mənsub olan ziyarətçilərin bilik səviyyəsini genişləndirir, dünyagörüşü və bacarıqları inkişaf edir. Funksiyaların reallaşması muzey işində tətbiq edilən fərqli metod və vasitələrin səmərəli şəkildə əlaqələndirilməsi ilə mümkün olur. Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova bu barədə qeyd edir:

"Mədəniyyətin ayrılmaz hissəsi kimi formalaşmış muzeylər sosial informasiyanın müxtəlif – milli, mədəni-tarixi, elmi-təbii sərvətlər vasitəsilə nəsillərdən-nəsillərə ötürülməsi kimi ənənəvi bir vəzifənin həyata keçirilməsi işinə xidmət edir. Muzeylər, təbii və cəmiyyət proses və hadisələrini səciyyələndirərək, maddi və mənəvi əşyaları komplektləşdirir, qoruyur, tədqiqi ilə məşğul olaraq bərpa edir və bununla yanaşı, onlardan elmi və təlim-tərbiyə məqsədləri üçün məqsədəmüvafiq şəkildə istifadə edir. Bu vəzifələrdən çıxış edərək muzey fəaliyyətinin quruluşunu əsasən iki amildə görmək olar. Bunlardna birincisi, tarixi dəyərə malik olan sərvətlərin axtarıb tapılması, qorunması və ikincisi isə, bu sərvətlərin təbliği, kütlələrə çatdırılmasıdır " [3, s 56] .

Muzey mühitinin təsir gücü yalnız müəyyən yaş qrupları və ya peşə sahibləri ilə məhdudlaşmır. Bu mühit həmçinin məktəblərlə birlikdə həyata keçirilən elmi və estetik-tərbiyəvi fəaliyyətlərin düzgün təşkil olunmasında mühüm rol oyanyır və diqqət mərkəzində saxanılmalıdır. Məlumdur ki, tərbiyə prosesi hər zaman müəyyən

bir mühitdə və konkret həyat tərzinə uyğun şəkildə baş verir. Bu baxımdan, məktəblilərin tərbiyəsinə olan təsir də birbaşa olaraq həmin mühitin uyğunluğundan aslıdır. Tərbiyəvi tədbirlərin reallaşdığı muzey şəraiti isə öz potensial imkanları sayəsində bu təsiri həm gücləndirə, həm də zəiflədə bilər. Fərqli profilli muzeylərdə bu proses müxtəlif nəticələrlə müşaiət olunur. Muzey muhiti vasitəsilə yaradıcı idrakı ilə tərbiyə prosesi arasındakı əlaqənin mahiyyətini daha dərindən analamaq mümkündür. Bu qarşılıqlı münasibət ictimai inkişafın bütün mərhələlərində aydın şəkildə özünü göstərir. Təbiətdə və cəmiyyətdə baş verən hadisələr yaradıcı düşüncə tərəfindən qavranılır, şərh olunur və sənət əsərlərinə, eləcə də bədii yaradıcılıq nümunələrinə çevrilir. Sonrakı mərhələlərdə isə müxtəlif yaş qruplarına aid insanlar bu yaradıcı idrak məhsullarımı mənimsəyir və tərbiyəvi təsirə məruz qalırlar. Bir-biri ilə sıx bağlı olan bu iki prosesdən biri yaradıcılıq müəssisələrində və emalatxanalarda, digəri isə muzeylərdə və sərgi məkanlarında baş verir. Yaradıcı idrakın əsas vəzifələrindən biri xarici aləmin təsirini insanın dünyagörüşü səviyyəsində canlandırmaqdır. Tərbiyə prosesində isə muzeylər müxtəlif tarixi dövrlərə aid sənətkarlıq nümunələrini və mədəni irsi uyğun mühitdə təqdim edərək bu təsiri daha da gücləndirir.

Uşaqların inkişaf mərhələləri muzey-pedaqoji fəaliyyət üçün mühüm nəzəri baza yaradır. Kiçik məktəb yaşında uşaqlar müşahidəetmə, yadda saxlama və ətraf aləmi qavrama kimi bacarıqları formalaşdırdıqları üçün muzey eksponatları onların idrak marağını artırır. Bu dövrdə muzey mühiti konkret faktların, görüntülərin və əşyaların canlı təqdimatı vasitəsilə öyrənməni asanlaşdırır. Orta məktəb yaşlarında şagirdlərdə analitik düşüncə və səbəb-nəticə əlaqələrini anlama bacarığı güclənir. Bu mərhələdə muzey ekskursiyaları, mövzulu sərgilər və interaktiv fəaliyyətlər onların tədqiqatşı təfəkkürünü inkişaf etdirir, biliklərin sistemli qavranılmasını təmin edir. Yeniyetməlik dövründə isə gənclər sosial münasibətlər axtarışı və özünüinkişaf mərhələsindədir. Muzeyin yaradıcı layihələri, qrup işçiləri və müzakirələr yeniyetmələr üçün həm sosiallaşma, həm də müstəqil fikir formalaşdırmaq baxımından geniş imkan yaradır. Beləliklə, uşaqların inkişaf xüsusiyyətlərinə uyğun qurulan muzey-pedaqoji fəaliyyət onların idraki, emosional və sosial inkişafını dəstəkləyir və təlim prosesinin səmıərəliliyini artırır.

Muzey mühitində məqsədyönlü fəaliyyətin əldə edilməsində optimal quruluşun, məzmunun, səmərəli üsul, vasitə və yolların müəyyən olunmasında başlıca tələblərin, prinsiplərin yerinə yetirilməsi də həlledici əhəmiyyət kəsb edir. Elmilik, fəaliyyətin mühitlə əlaqələndirilməsi, yaşauyğunluq, fərdi xüsusiyyətlərin nəzərə alınması, hərtərəfli təsir göstərmə, ardıcıllıq, sistemlilik, ideyalılıq və s. prinsiplərin qarşılıqlı, əlaqəli şəkildə həyata keçirilməsi müasir muzeyşunaslığımızın daha da inkişafı üçün məqsədəuyğundur.

Muzey kommunikasiyası nəzəriyyəsi bir neçə istiqaməti özündə birləşdirir. Muzeylərin fəaliyyəti əsasən fondlar üzərində qurulur və bu fondlar muzey əşyaları fondu ilə elmi köməkçi materiallar fonduna ayrılır. Muzey kommunikasiyası

nəzəriyyəsi muzeyi sadəcə kommunikasiya institutu kimi deyil, eyni zamanda məlumatı qəbul edən və onu yayan xüsusi elmi-tədqiqat sahəsi kimi araşdırır. Bu nəzəriyyə muzey ekspozisiya obyektlərinin yerləşdirilmə formalarını, eləcə də muzey əşyaları vasitəsilə informasiyanın ötürülmə xüsusiyyətlərini öyrənir. Muzeydə kommunikasiya prosesi çoxsahəli və mürəkkəb xarakter daşıyır. Bu proses yalnız eksponatların nümayişi ilə məhdudlaşmır, lakin bir çox muzey növlərində əsas amil kimi çıxış edir. Kommunikasiya nəzəriyyəsinin tədqiqat sahəsində isə əsas diqqət ekspozisiya-sərgi fəaliyyətinə yönəlir. Muzey ekspozisiyası muzeyin elmi əsaslarla hazırlanmış konsepsiyası və müasir bədii-memarlıq prinsiplərinə uyğun şəkildə təşkil olunmuş, xüsusi seçilmiş muzey əşyalarının nümayişi vasitəsilə tədris və tərbiyə funksiyasını yerinə yetirən əsas kommunikasiya formasıdır. Bu tərifdən aydın olur ki, ekspozisiya muzeylə cəmiyyət arasında əlaqə yaradan başlıca vasitədir və müxtəlif sosial təbəqələrin canlı ünsiyyət qurmasına imkan yaradır. Aydın olur ki, ekspozisiya muzey əşyalarının xüsusi üsullarla təqdim olunmasıdır və bunun özünəməxsus xüsusiyyətləri mövcuddur. Tarixi faktların və hadisələrin açıq, anlaşıqlı şəkildə cəmiyyətə çatdırılması üçün uyğun şəkildə cəmiyyətə çatdırılması üçün uyğun şərait yaradıldıqda, ekspozisiyaların məzmunu daha dərin və ideya baxımından əsaslandırılmış olur. Buna görə də ekspozisiyaların məzmun və forma baxımından yüksək səviyyədə hazırlanması son dərəcədə vacibdir. Məhz bu səbəbdən ekspozisiyanın elmi konsepsiya əsasında qurulması xüsusi əhəmiyyət kəsb edir. muzey ekspozisiyası yalnız müxtəlif əşyaların toplusu kimi deyil, əvvəlcədəən düşünülmüş vahid elmi ideya əsasında formalaşdırılan bütöv bir sistem kimi qiymətləndirilməlidir.

Ekspozisiya muzeylərdə aparılan mühüm elmi-tədqiqat işlərindən biridir. Eyni zamanda gənc nəslin təlim-tərbiyəsində və onların dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Bu haqda geniş və ətraflı məlumatlar Elfira Məlikovanın "Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası" fənni üzrə tədrisin baloniya təhsil sisteminə uyğunlaşdırılması və tətbiqi" adlı dərsliyində əks olunmuşdur. Pedaqoji fəaliyyət prosesində tədrisin keyfiyyəti o vaxt yüksək nəticə verir ki, təlimlə tərbiyə vəhdət təşkil etsin. Muzeylərdə ekskursiya işinin təşkilinin bir sıra prinsipləri vardır. Bunlara elmilik, ardıcıllıq, kütləvilik və s. prinsiplər daxildir. Məlum olduğu kimi ekskursiya mətni elmi mənbələrə əsaslanmalıdır. Muzeylərdə müxtəlif ekskursiyalar keçirilir. Ekskurisiyalar keçirildiyi yerə, eksponatların nümayişinə, mövzusunun xarakterinə, məqsədyönlüyünə, ekskursiya qruplarının tərkibinə görə bir-birindən fərqlənirlər. Tematik və yaxud mövzü üzrə ekskursiyaların bir sıra variantları vardır. Mövzu üzrə ekskursiyalarda tarixin müəyyən dövrləri, yaxud hadisələri haqqında məlumat verilir, tarixi prosesin hər hansı bir səhifəsi, müxtəlif şəxslərin, yaxud kollektivlərin həyat və yaradıcılığı öz əksini tapır. Elmi-maarif ekskursiyaları əsasən muzeylərin maarifçilik funksiyasini həyata keçirmək məqsədi ilə təşkil olunan, ziyarətçilərə elmi biliklərin sistemli və anlaşilan formada çatdirilmasini nəzərdə tutan tədbirlərdir. bu cür ekskursiyalar müəyyən mövzu

ətrafinda qurulur və ekspozisiyada nümayiş etdirilən eksponatlar əsasinda faktlara, elmi araşdirmalara və tarixi mənbələrə əsaslanir. Elmi-maarif ekskursiyalarinin əsas vəzifəsi ziyarətçilərdə tarixi, mədəni və elmi irsə dair düzgün təsəvvür formalaşdirmaq, onlarin bilik və dünyagörüşünü genişləndirməkdir. ekskursiya rəhbəri məlumati ardicilliqla təqdim edir, eksponatlarin mənşəyini, dövrünü, funksiyasini və elmi əhəmiyyətini izah edir. Bu ekskursiyalar təhsil prosesinin mühüm elementi kimi çixiş edir, məktəblilər, tələbələr və geniş ictimaiyyət üçün nəzərdə tutula bilər. elmi-maarif yönümlü ekskursiyalar həmçinin tədqiqat yönümlü düşüncəni inkişaf etdirir, iştirakçilarin mədəni irsə münasibətini gücləndirir və muzeylərin sosial-mədəni missiyasina töhfə verir.

Müxtəlif mövzular və problemlər əsasında formalaşdırılan, daimi dinləyici kütləsinə malik ekskurskiya silsilələri də təşkil olunur. Bu cür ekskursiyalar ekspozisiya materiallarının daha dərindən öyrənilməsinə şərait yaradır və ekskursiya fəaliyyətinin ümumi səviyyəsinin artmasına kömək edir. Hər hansı bir mövzunun əhatəli şəkildə araşdırılması baxımından bu silsilə ekskursiyalar mühüm rol oynayır. Elmi-maarif yönümlü ekskursiyalar əsasən əhalinin mədəni və siyaso biliklərinin artırılmasına xidmət edir. Bununla yanaşı, bu tədbirlər insanların asudə vaxtlarının səmərəli və mədəni şəkildə keçirilməsinin vacib formalarından biri hesab olunur. Belə ekskursiyalar ictimai xarakter daşıya, müvəqqəti ola və yalnız bir mövzuya həsr edilə bilər. Lakin, onların hər birinə ideya-məzmun baxımından ciddi yanaşılmalı, istifadə olunan materialların seçilməsində peşəkarlıq əsas götürülməlidir. Ekskursiya mətninin ardıcıl şəkildə yenilənməsi, onun aktuallığının qorunması və əhatəli olmasının təmin edilməsi, eyni zamanda metodiki əsaslarının təkmilləşdirilməsi ekskursiya işinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir və bu proses muzey fəaliyyətinin əsas istiqamətlərindən biri kimi qiymətləndirilir.

Sənətşunas fəlsəfə doktur, dosent Elfira Məlikova qeyd edir : “Muzeyin spesifik vəzifələrindən biri də adamlarda muzey mədəniyyətinin tərbiyə olunmasıdır. Muzeylər tarix və mədəniyyət abidələrinə, onları yaardan insanın əməyinə qarşı hörmət hisslərini oyatmağa, bu abidələrin ictimai əhəmiyyətinin, estetik dəyərinin, onların gələcək nəsillər üçünqorunub saxlaanılmasının labüdlüyünü açıqlamağa çalışır. Muzey mədəniyyətinə yiyələnmək muzey formaları vasitəsilə təmin olunan ünsiyyət prosesidir.” [1, s14].

Muzeylərdə aparılan ideya-tərbiyə, təhsil işinin özünəməxsus spesifik xüsusiyyətləri vardır. Muzeydə keçirilən sərgilərin gələcək nəslin ideya-tərbiyə, təhsil işini n yaxşılaşdırılmasında mühüm əhəmiyyəti vardır. Muzeydə təhsil işinin möhkəmləndirilməsi ilə əlaqədar olaraq keçirilən bütün tədbirlər şagirdlərdə ideya-tərbiyə işinin yaxşılaşdırılmasına xidmət edir. Bu istiqamətdə vaxtaşırı olaraq muzeylərdə müxtəlif tədbirlər keçirmək lazımdır. Bu baxımdan mütəmadi olaraq mühazirələr, tematik gecələr, müsabiqələr, görüşlər, konfranslar, musiqi məclisləri və müxtəlif tədbirlər keçirmək faydalıdır. Tədris müəssisələrində asudə vaxtın səmərəli təşkili baxımından şagirdlərin muzeylərə aparılması daha məqsədəuyğundur.

Muzeylər xalqımızın maddi, mənəvi dəyərlərini toplayıb, qoruyan və təbliğ edən mədəni-maarif müəssiələri olmaqla bərabər, gənc nəslin təlim tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, muzeyin fəaliyyət dairəsi geniş və rəngarəndir. Bura fond işi, ekspozisiya, elmi-tədqiqat, elmi-maarif, elmi-kütləvi işlər, ekskurisya və s. sahələr daxildir. Muzeyin ekspozisiyası fond eksponatları əsasında, muzeyə təqdim olunan hədiyyələr, digər müəssisə və təşkilatlardan muzeyə verilmiş qiymətli sənədlər və materiallar əsasında tərtib edilir. Eyni zamanda muzeydə aparılan bütün elmi-kütləvi işlər fond materiallarına əsaslanmalı və son nəticədə görülən bütün işlər fondun elmi arxivində komplektləşdirilməlidir.

Muzey fəaliyyəti özündə maarifləndirici, tərbiyəedici, təhsilverici, inkişaf etdirici və formalaşdırıcı imkanları birləşdirir. Bu funksiyaların təsiri muzeyin elmi araşdırmalar, sənədlərin toplanması, qorunması, bərpa olunması, təbliğm və nümayiş kimi əsas iş sahələrinə söykənir. Muzeyin cəmiyyət həyatında baş verən proseslərlə vı inkişafla əlaqəsi də bu fəaliyyətlərin ayrılmaz hissəsidir. İdeya-mənəvi tərbiyə, estetik zövqün formalşadırılması, vətənpərvərlik və əxlaqi dəyərlərin aşılanması da muzeyin tərbiyəvi istiqamətinin tərkib hissəsini təşkil edir. Təhsilverici imkanlar muzey daxilində və muzeydənkənar tətbiq olunan vasitələrdən ibarətdir. Bu vasitələr bir-birini tamamlayaraq ümumi təsiri gücləndirir və muzeyin maarifçilik funskiyasını genişləndirir. İnkişafetdirici və formalaşdırıcı sahələrin səmərəsi müasir texnologiyaların tətbiqindən və əldə olunan nəticələrin düzgün yönləndirilməsindən asılıdır ki, bu da muzey fəaliyyətinin ümumi məhsuldarlığını artırır. Muzey işində mərhələlərin rolu xüsusi əhəmiyyət daşıyır. Bu, həm əməkdaşlar arasında əlaqənin, həm də muzey daxilinə və xaricində fəaliyyət göstərən kollektivlərin elmi və yaradıcı potensialının uzlaşmasından aslıdır. Məhrələlərin ardıcıllığı, planlaşdırılması və funksionallığı muzeyin ümumi effektivliyinə bilavasitə təsir edir. Beləliklə, muzey daxilində olan qarşılıqlı əlaqələrin düzgün qurulması və ahəngdar fəaliyyəti ümumi proseslərin keyfiyyətini yüksəldir və vahid əlaqələrin formalaşmasına əsas yaradır.

Azərbaycan muzeyləri milli maddi və mənəvi irsin qorunmasında, elmi-tədqiqat və maarifçilik fəaliyyətində əsas mərkəz rolunu oynayır. Muzeylərin ekspozisiyaları və elmi-maarif ekskursiyaları ziyarətçilərin idraki və sosial inkişafına töhfə verir, həmçinin cəmiyyətin mədəni səviyyəsinin yüksəlməsinə xidmət edir. Muzeyşünaslıq elmi sahəsi muzey fəaliyyətini sistemli şəkildə öyrənməklə onun elmi və maarifçilik potensialını artırır.

Gələcək tədqiqatlar muzeylərin təhsil, tərbiyə və mədəni irsin qorunması funksiyalarını daha da təkmilləşdirməyə imkan verəcəkdir.

## Ədəbiyyat

1. Məlikova, E. (2021). “Azərbaycan Muzeyşunaslığı”: monoqrafiya.
2. Əmirxanov, S. (2012). “Muzeyşunaslıq” : tədris metodiki vəsait. Bakı: Bakı Biznes Universiteti.
3. Məlikova, E. (2007) “Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası” fənni üzrə tədrisin baloniya təhsil sisteminə uyğunlaşdırılması və tətbiqi””: dərslik
4. Eyvazova, Y. (2009). “Muzey ekspozisiyası” : dərs vəsaiti. Bakı: Mars Print
5. Əmirxanov, S. (2011). “Azərbaycanda muzeyşunaslığın aktual problemlər”. Bakı Biznes Universiteti.

## Миссия музейных институтов в области культурно-просветительской и научной деятельности»

### Резюме

Богатое материальное и духовное наследие Азербайджана сохраняется, изучается и передаётся обществу через музеи. В период независимости научно-исследовательская, просветительская и социально-культурная деятельность музеев значительно расширилась, а правовая база, регулирующая эту сферу, была укреплена. Музеи являются не только местом хранения экспонатов, но и важными культурно-просветительскими учреждениями, обеспечивающими распространение научных знаний, усиление воспитательного влияния и развитие творческого мышления. Современное музееведение изучает функции, структуру и принципы деятельности музеев, систематизируя их педагогическую, коммуникативную и научную работу.

Научная концепция построения экспозиции, организация научно-просветительских экскурсий и влияние музейной среды на обучение и воспитание составляют основные направления музейного дела и вносят значительный вклад в культурное развитие общества.

**Ключевые слова:** музееведение, музей, культурное наследие, экспозиция, экскурсия

## The Cultural-Educational and Scientific Mission of Museum Institutions

**Summary**

Azerbaijan's rich material and spiritual heritage is preserved, studied, and transmitted to society through museums. In the period of independence, the scientific-research, educational, and socio-cultural activities of museums have significantly expanded, and the legal framework regulating this field has been strengthened. Museums are not only places where artifacts are stored but also important cultural and educational institutions that promote the dissemination of scientific knowledge, enhance educational influence, and foster creative thinking. Modern museology examines the functions, structure, and principles of museum activity, systematizing their pedagogical, communicative, and scientific roles. The scientific concept of building exhibitions, the organization of educational museum tours, and the impact of the museum environment on teaching and upbringing constitute the main directions of museum work and make a significant contribution to the cultural development of society.

**Key words:** museology, museum, cultural heritage, exposition, excursion

**Redaksiyaya daxil olma tarixi: 04.08.2025**
**Çapa qəbul olunma tarixi: 02.11.2025**
**Rəyçi: Natiq Qurbanov**
**Respublika Kənd Təsərrüfatı Muzeyinin direktoru**
**tərəfindən çapa tövsiyə olunmuşdur**